# Ağlın toxluğundan qəlbin aclığına

*Lev Tolstoyun “Anna Karenina” romanı haqqında*

■ **Fərid Hüseyn**

*əvvəli ötən sayda*

### BAĞIŞLAMAQ

Tolstoy bir müəllif kimi (insan kimi) Anna Kareninanı sevir, fəqət bağışlamır. Çünki Tolstoyun nəzərində din sevgidən yuxarıda dayanır. Yəni əsərin nəticəsi kimi müəllifin qənaəti belədir ki, ailə müqəddəsdir və onu heç nəyə - heç bir istəyə, ehtirasa qurban vermək olmaz, nəticəsindən asılı olmayaraq bu cür hərəkətlərin bəraəti yoxdur. Müəllif romanı haqqında “bir qadının hekayəti”dir deməsi də bu fikri təsdiqləyir. Bəs Annanı, doğurdan da, bağışlamaq olarmı və Anna özü bunu istəyirmi? Əsərin VII bölməsində Levin Annanın yaşadığı evə gəlir, aralarında səmimi söhbət olur. Sonra Levin gedərkən Anna onun arvadına - Kitiyə keçmişdə olan hadisələrlə bağlı bir ismarıc göndərir: “Arvadınıza deyin ki, mən onu əvvəlki kimi sevirəm, əgər o indiki vəziyyətimə görə məni bağışlamaq istəmirsə, məni heç vaxt bağışlamasını arzu etmirəm. Bağışlamaq üçün mənim çəkdiyim əzabları yaşamaq lazımdır, qoy Allah onu belə əzablardan qorusun”. Əslində, Anna bu sözləri Kitinin timsalında onu bağışlamayan bütün insanlara deyir. Bu məqamdan aydın olur ki, Anna ona qarşı münasibətlərə görə heç kəsi ittiham etmək fikrində deyil. O başa düşür ki, onu yalnız onun yaşadıqlarını yaşayanlar tam mənada anlaya bilərlər. “Anna Karenina” haqqında yazdığım bu kitabı heç kəsi ittiham etməyənlərə - günahlandırmayanlara ithaf etməyimin bir səbəbi də Annanın bu mövqeyi, alqışlanası cəsarətidir. O, istəmir ki, biz onun halına düşək, onun yaşadıqlarını yaşayaq və yalnız bundan sonra onu bütün reallığı ilə anlayaq. Bununla - belə sərrast mövqeyi ilə Anna həm də özünü qoruyur, əməllərinə daha alt qatda bəraət qazandırır, yəni onun fikrinin ikinci tərəfi ondan ibarətdir ki, mənim yaşadıqlarımı yaşamayanların məni ittiham etməyə haqqı yoxdur. Başqasını özü kimi duymaq bacarığı isə hər adama verilmir. Haşiyə: Avropa xalqlarına aid nağılların birində nəql olunur ki, bir gün camaat gəlir sehrbazın yanına və sehrlə müharibələri dayandırmağı xahiş edirlər. Sehrbaz bütün silahları məhv edir. Müharibə etmək istəyənlər bu dəfə ağacları kəsib silah düzəldirlər. Sehrbaz həmin ağacları da məhv edir. İş o yerə çatır ki, dünyada lazım olan hər şeydən silah düzəldə bilən insanların əlindən sehrbaz hər şeyi alır. Belə olan təqdirdə onlar aclıqdan ölməli idilər. Bir uşaq sehrbaza məsləhət görür ki, sən bütün məhv etdiklərini geri qaytar, əvəzində insana Özgəsini Özü Kimi Duymaq Bacarığı ver, qoy kim kiməneyləsə həmin ağrını da, sevinci də özü yaşasın. Sehrbaz uşağın dediyini edir və başqasının ağrısını öz ağrısı kimi duyan insanlar bir də silaha əl atmırlar. Dünyada sülh, əmin-amanlıq bərqərar olunur.

İttiham etmək başqalarını özün kimi duymamaqdan doğan nöqsandır. Əgər ən müxtəlif məqamlarda özümüzü başqalarının yerinə qoya bilsək, onların nələr çəkdiyini bütün ağrısıyla duya bilsək, özümüzü qarşı tərəfin düşdüyü vəziyyətdə və onunla qarşılıqlı münasibətdə olan insanların yerinə qoysaq, bir anlıq da olsa ittiham etdiyimiz adamın xarakterinə sahiblənə bilsək, onda heç zaman başqalarını ittiham etməyə, onun əməllərinə yarlıq yapışdırmağa tələsmərik. Çünki ittiham etmək, günahlandırmaq tələskənlik - əlüstü cəzalandırmaq xarakterindən irəli gəlir. Bağışlamaq isə daim sonrakı mərhələdir, sonuncu instansiyadır. Bağışlamaq Allahdan bir addım irəlidə dayanmaqdır. Əməlləri Tanrının ittihamından daha əvvəl qiymətləndirib, günahlara azadlıq verməkdir. Bağışlamaq Allaha xas əlamətdir, ona görə də bizi dəfələrlə bağışlamış insana (xeyirxah müəllimə, anaya, sadiq dosta və s.) daim sığınırıq, onların bizim günahlarımızı bilməsi bizi alçaltmır. Ancaq bizi bağışlamayanların önündə günahlarımız özümüz üçün belə alçaldıcı mahiyyət qazanır. Cənnət ilə cəhənnəmin yolu da məhz bu məqamda ayrılır. Cəhənnəm bağışlanmayacaq günahların cəzalandırıldığı, insanın əməlinə görə cəzalandırıldığı yeridir, cənnət isə əksinə. İnsan cənnətdən qovulub deyə, daim cənnətə (onun müxtəlif formalarına, onun insanda təcəlla edən məqamlarına) can atır. Bizi bağışlayanlar bizə cənnət, bizi ittiham edənlər isə cəhənnəm vəd edirlər. Cənnətə can atan insanların bağışlayan insanlara can atmasının əsas səbəbi budur. Anna Karenina isə onu ittiham edənlərin - ona cəhənnəm düzəldənlərin arasında yaşayırdı, ona görə də onun bu problemlər əsər uzandıqca çözülmür ki, çözülmür. Məhz bu havadan asılı qalmaq ovqatı, “nə oyanlıq, nə buyanlıq olmaq” vəziyyəti tərəfləri daha da çıxılmaz vəziyyətə salır və bütün proseslər sonucda psixoloji sarsıntılar kimi meydana çıxır. Yəni Anna Karenina belə demək mümkündürsə, artıq dəliliyin astanasına gəlib yetişir. Anna bu hissədən sonra artıq qadın kimi yox, ittihamçı kimi çıxış edir, o, daha öz şəxsi faciələri ilə yola gedə bilmir, dərdləri, problemləri onun amansız düşməninə çevrilir.

Məhəbbətin çoxlarını yanıldan ittihamçı bir sualı var. Həmin sual haçansa tərəflərdən çoxlarının qəlbində “peyda olur”: “O daha məni sevmir?!” Əgər bu sualın toxumu qəlbə səpilibsə, deməli, daha o sualı verən deməli, əvvəlki kimi sevmir, yaxud sevəni öncəki sayaq dərindən duya bilmir. Çünki insan özündən çox zaman ya şübhələnmir, ya da iş-işdən keçəndən sonra qızırğalanır. Şübhə həqiqi hissləri, saf duyğuları məhv edən

### TAM ANLAMAQ

Annanı ittihamçı ovqatında, günahlandıran rolunda gördükdən sonra bəlli olur ki, daha onun da məhəbbəti əvvəlki qüdrətində, gücündə deyil. Tolstoy, əslində, hər iki tərəfin məhəbbətinin azalmasını, problemlərin onların sevgilərini də zədələdiyini göstərir. Əsərin bu hissəsinə qədər biz Vronskini mətin, taleyinin sahibi, etdiklərinə cavabdeh, sevdiyi qadına tam sahib, ən əsası yaşadıqlarına görə peşman olmayan biri kimi görürük. Ancaq bu hissədə müəllif yazır ki, Vronski peşman idi və onu bu ağır vəziyyətə Anna Karenina saldığına görə peşman idi. Və Tolstoy oxucunun yanıldığını da göstərmək istəyir. Müəllif başa salır ki, siz ancaq obrazın taleyini oxuyur, o barədə düşünürsünüz, sizlər - mütaliə edənlər - hadisələrə kənardan baxırsınız, olanları hadisə, süjet kimi qiymətləndirirsiniz, ancaq obrazların qəlbindəkilərini, yaşdıqlarını tam bilmirsiniz. Bu detalla da göstərmək istəyir ki, onun ölümündə haradasa xilasa canatma var. O sanki onlarla adam tərəfindən ittiham edilməkdən, düşdüyü ağır vəziyyətlərin əlindən cana doyaraq şüuraltı olaraq bir kəs - Yaradan tərəfindən ittiham olunmağı seçir və ona görə də özünü qatarın altına atır...

### SUALIN QOYULUŞU

Əgər “Anna Karenina”nın ilk cümləsi xoşbəxtliklə bədbəxtliyin sərhədlərini müəyyənləşdirən fikirdirsə, əsərin Yeddinci fəslinin XXIII hissəsinin ilk iki abzası dağılmağa doğru yol alan ailələrin ümumi faciəsinin əksidir: “Ailə həyatında qəti qərara gəlmək üçün ya ər-arvad arasında çəkişmə, ya da razılıq olmalıdır. Ər-arvadın münasibəti qeyri-müəyyən olduqda, yəni onların arasında nə nifrət, nə də məhəbbət olmadıqda hər hansı bir qərar vermək mümkün deyil. Ərlə-arvadın bir-birini təngə gətirmələrinə baxmayaraq, bir çox ailələr illərlə ona görə dağılmır ki, bu ailələrdə nə tam nifrət, nə də razılıq olur”.

Tolstoy əsərin ilk cümləsində dediyi fikrin, sanki, əvvəlinə keçir bu fikirlə, - gələcək faciəni qarşılayan fikrin daha zəruri, vacib hissəsi ilə məhz bu məqamda rastlaşırıq. Anna və Vronski qərar vermək anına gəlib yetişiblər: Anna boşanmalıdır, oğluna sahib çıxmalı, cəmiyyətin ona olan münasibətini qəbul etməli, olanları unutmalı, ora-bura köçmədən bir evdə oturaqlaşmalı, Vronskiyə olan məhəbbətini bədbəxtlikləri ilə əlaqələndirməməli, əsər boyu bir-birini üstələyən ana-qadın qarşıdurmasının axırına çıxmalı, taleyini bütünlüklə anlayıb qəbullanmalı və ən nəhayət yeni həyatına uyğunlaşmalıdır. Vronski də öz növbəsində tutduğu mənsəbdə sabitqədəm olmalı, Annanı bütün problemləri ilə qəbul etməli, ailə problemlərinin həlini yekunlaşdırmalı, bir yerdə binə tutmalı, özgəsinin uşağına öz balası kimi baxmalı, cəmiyyətin ailəsinə olan rəyini gözarı etməli, bütün yaşananlara “bu da mənim həyatımdır” nəzəriylə baxmağı bacarmalıdır. Bütün bunlar Annadan və Vronskidən, onların fərqli xarakterlərindən (od və su) asılıdır, amma



başlanğıc virusudur. Anna Kareninanın qəlbində bir vaxtlar canı qədər sevdiyi Vronski haqqında “onun həyatında bir qız var?”, “Məni əvvəlki kimi sevmir?” sualları yarananda o, həmin sualların cavabını özündə axtarmırdı. O, özünə sual vermirdi ki, “mən daha onu əvvəlki kimi sevmirəm?”, “Ona əvvəlki qədər bağlı deyiləm?”. Məhəbbət xoşbəxtliyinin əsas şərtlərindən biri (həm də) “sevgi boyunca” düzgün sual verib, doğru cavab almaqdır. (Çexovun yaradıcılığını yüksək qiymətləndirənlərdən biri deyirdi ki, Çexov ona görə böyük yazıçı deyil ki, o əsərində hansısa problemi qoyur və həll edir. Xeyr. Çexovun böyüklüyü ondadır ki, o əsərlərində sualı düzgün qoyur). Necə ki içəridəki hadisədən xəbərsiz biri otağa daxil olan kimi qarşısına keçən hər kəsi günahlandırır, eləcə də öz qəlbindən xəbərsiz insan... Anna Karenina da belədir. O, şübhəyə qapılır, - günahkar axtarır. Nəticədə özünü - varlığını unudur. Öz günahını unutmaq öz varlığını unutmaqdır... Günah bizə cəhənnəm, günahsızlıq isə cənnət vəd edir. Deməli, xoşbəxtlik üçün insanın ən böyük seçim qabiliyyəti günahını və ya günahsızlığını tanımaqdır. Dolsayısı ilə desək, öz həyatına verdiyin sualı düzgün qoymaqdır.

baş qəhrəmanları sadəcə obraz deyillər - onlar canlı insandırlar, sizin oxuduğunuzsa əsər deyil - həyatın özüdür. Həyatı da, insanı da sonacan anlamaq və qiymətləndirmək mümkün deyil. Bəs biz oxucular haradan bilirik ki, obrazların taleyi haqqında yanılmışıq. Tolstoy Anna ilə Vronskinin bir-birindən narazılığı haqqında yazarkən qeyd edir ki: “Bu, daxili narazılıq idi”. Yəni, sizlər bütün olanlara kənardan baxırsınız, Vronskinin taleyi ilə barışdığını zənn edirsiniz, ancaq müəllifin təqdim etdiyi Vronskinin zahiri həyatı ilə tanışsınız, əsas məsələ isə qəhrəmanların içərisində gedir: “Onları bir-birindən ayıran narazılığın zahiri səbəbi yox idi və bunu aydınlaşdırmağa nə qədər çalışsalar da, narazılıq aradan qalxmır, əksinə, daha da artırdı. BU DAXİLİ NARAZILIQ İDİ, Anna Vronskinin məhəbbətinin azalmasından narazıydı, Vronski Annanın xatirinə özünü ağır vəziyyətə saldığı üçün peşmanlıq çəkirdi. Anna Vronskinin bu vəziyyətini yüngülləşdirməkdənsə, onu daha da ağırlaşdırdığı üçün narazılıq getdikcə artırdı. Nə Anna, nə də Vronski öz narazılıqlarının səbəbini açıb demir, ancaq bir-birini haqsız hesab edir və əllərinə fürsət düşən kimi bunu bir-birlərinə sübut etməyə çalışırdılar”.

**Ardı var**